AZƏRTAC xəbər verir ki, iclasda iqtisadiyyat naziri, Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi və dostluq münasibətlərinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığını vurğulayıb. Bildirib ki, ikitərəfli əlaqələrdə xalqlarımızın ortaq dinə, tarixə və adət-ənənələrə malik olması da əhəmiyyətli rol oynayır. Son 5 ildə Azərbaycan-İran əlaqələri xüsusilə inkişaf edib və yeni mərhələyə qədəm qoyub. Ölkələrimiz arasında əməkdaşlığın möhkəm müqavilə-hüquq bazası yaradılıb, müxtəlif sahələrdə 150-dən çox, son 5 ildə 50-yə yaxın sənəd imzalanıb.

Dövlət Komissiyasının ötən iclasından keçən dövrdə görülmüş işlər barədə məlumat verən Şahin Mustafayev deyib ki, Azərbaycanda qeydiyyatdan keçmiş İran şirkətlərinin sayı 1000-i ötüb, İranın Azərbaycana yatırdığı investisiyaların həcmi 3,4 milyard ABŞ dollarına çatıb. Azərbaycan iş adamları da İran iqtisadiyyatına investisiyalar yatırır. Azərbaycan və İran birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil istehsal edilir, Bakıda Azərbaycan-İran klinikası açılıb, Pirallahı Sənaye Parkında birgə əczaçılıq zavodu tikiləcək.

Qarşılıqlı əməkdaşlığın əsas istiqamətlərindən olan ticarət sahəsində ciddi irəliləyişlərə nail olunub, 2018-ci ildə ticarət dövriyyəsi 74 faiz artaraq 446 milyon dollar təşkil edib. Bununla belə, ticarət dövriyyəsinin artırılması və strukturunun şaxələndirilməsi üçün böyük potensial var.

Şahin Mustafayev qeyd edib ki, hər iki ölkənin dövlət başçılarının siyasi iradəsi və verilən tapşırıqların icrası nəticəsində nəqliyyat-tranzit sahəsində mühüm işlər görülüb. 2016-cı ildə Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Hökumətlərarası Sazişin və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolunun imzalanması həyata keçirilən tədbirlər üçün hüquqi zəmin yaradıb.

Diqqətə çatdırılıb ki, tarixi əhəmiyyətə malik Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində önəmli tədbirlər həyata keçirilib. Azərbaycan bu layihə üzrə öz ərazisində müvafiq infrastrukturun yaradılması işini uğurla tamamlayıb. Bununla yanaşı, Astarada iki ölkənin dəmir yollarının birləşdirilməsinə nail olunub, Astaraçay üzərində dəmir yolu körpüsü istismara hazır vəziyyətə gətirilib, quru yük terminalının 1-ci fazası istifadəyə verilib. Mart ayının 6-da Qəzvin-Rəşt dəmir yolunun açılması yalnız Şimal-Cənub deyil, eyni zamanda, Cənub-Qərb Nəqliyyat Dəhlizinin də inkişafı istiqamətində atılmış çox mühüm addımdır.

İki ölkə arasında mühüm əməkdaşlıq istiqamətlərindən biri də sərhəd və gömrük sahəsində əməkdaşlıqdır. Bu sahədə görülən işlərdən danışan Şahin Mustafayev ötən ilin mayından Biləsuvar, Astara və Culfa sərhəd-keçid məntəqələri 24 saatlıq iş rejiminə keçdiyini, Şahtaxtı-Poldəşt məntəqəsinin iş rejiminin bu ilin fevral ayından 12 saatdan 16 saata artırıldığını qeyd edib.

Vurğulanıb ki, Azərbaycan və İran energetika sahəsində də səmərəli əməkdaşlıq edirlər. SOCAR və İranın NİCO şirkəti arasında uğurlu əməkdaşlıq əlaqələri var. Ölkələrimiz arasında Naxçıvan Muxtar Respublikasının qazla təmin olunmasında əməkdaşlıq həyata keçirilir.

"Xudafərin" və "Qız Qalası", eləcə də "Ordubad və Marazad" SES və hidroqovşaqlarının tikintisi və istismarı üzrə Birgə Texniki Komissiyalar yaradılıb, bu istiqamətdə birgə iş aparılır. Eyni zamanda, 330 kv-luq İmişli-Parsabad elektrik xətti tikilib. 2016-cı ildə Hökumətlər arasında elektrik enerjisinin satışı haqqında Çərçivə Sazişi imzalanıb, İranın Muğan və Astara bölgələrinə elektrik enerjisinin ixracına başlanılıb.

İran-Azərbaycan-Rusiya və İran-Azərbaycan-Gürcüstan elektrik enerjisi sistemlərinin birləşdirilməsi nəzərdə tutulur. Azərbaycan-İran-Türkiyə elektrik enerjisi dəhlizinin yaradılması məqsədilə həyata keçiriləcək tədbirlər üçtərəfli enerji əməkdaşlığını genişləndirməyə əlavə imkan yaradacaq.

Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, kənd təsərrüfatı, səhiyyə, təhsil, mədəniyyət, turizm sahələrində əlaqələrimiz davamlı olaraq inkişaf edir. Son illərdə Azərbaycana səfər edən İran vətəndaşlarının sayının artdığı müşahidə edilir. Belə ki, 2018-ci ildə 240 mindən çox iranlı Azərbaycanda olub. "ASAN Viza" vasitəsilə viza alan əcnəbilərin sayına görə İran vətəndaşları 1-ci sıradadır.

Əməkdaşlığın genişləndirilməsi perspektivlərinə gəlincə, nazir Şahin Mustafayev diqqətə çatdırıb ki, sənaye, kənd təsərrüfatı, ticarət, kiçik və orta sahibkarlıq, gömrük, maliyyə və bank, İKT, ekologiya, meliorasiya, humanitar və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var və Dövlət Komissiyasının iclasında aparılacaq müzakirələr bu potensialın reallaşması istiqamətində əhəmiyyətli olacaq.

İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, son illərdə Azərbaycan-İran əlaqələrinin daha da inkişaf edərək yüksək səviyyəyə çatdığını qeyd edib. Fərhad Dejpəsənd hər iki ölkənin dövlət başçısının İran-Azərbaycan əlaqələrinin inkişafına və Dövlət Komissiyasının işinə dəstək göstərdiyini vurğulayıb. İranlı nazir qeyd edib ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artması müsbət haldır. Bununla belə, qarşılıqlı ticarətin genişlənməsi üçün imkanlar genişdir. Bundan başqa, sənaye, səhiyyə, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində də əlaqələrin inkişafı üçün potensial böyükdür. Ölkələrimiz arasındakı yüksək siyasi münasibətlər iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə əlverişli şərait yaradır.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 13-cü iclasında iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan-İran əməkdaşlığının inkişafına, birgə həyata keçirilən layihələrə, ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb.

İclasın sonunda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 13-cü iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədi Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri Fərhad Dejpəsənd imzalayıb.

İclas çərçivəsində müzakirə olunmuş məsələlərin və Komissiyanın gələcək fəaliyyət istiqamətlərinin əksini tapdığı sənəddə ticarət, kiçik və orta sahibkarlıq, sənaye, nəqliyyat, gömrük, kənd təsərrüfatı, energetika, su və ətraf mühit, qida təhlükəsizliyi, investisiya, İKT, turizm, humanitar və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Dövlət Komissiyasının iclası çərçivəsində İranın "Etihad" şirkəti ilə Azərbaycanın "Azərmaş" ASC arasında Neftçala Sənaye Məhəlləsində avtomobil ehtiyat hissələrinin istehsalına, həmçinin "Qartal" şirkəti və "Azərmaş" ASC arasında Hacıqabul Sənaye Məhəlləsində avtobus istehsalına dair anlaşma memorandumları imzalanıb.

**AZƏRTAC**

# "Con Batçelor Şou" radio proqramı Azərbaycanla bağlı silsilə verilişlər hazırlayıb

**ABŞ-ın məşhur və geniş dinləyici auditoriyasına malik olan "Con Batçelor Şou" (John Batchelor Show) radio proqramı Azərbaycanla bağlı silsilə verilişlər hazırlayıb.**

AZƏRTAC xəbər verir ki, "Con Batçelor Şou"nun ölkəmizdə səfərdə olan jurnalistləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüşüblər. Görüşdə Əli Həsənov Azərbaycanın tarixi, mədəniyyəti, beynəlxalq əlaqələri, multikultural dəyərləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm layihələr barədə məlumat verib.

Verilişlərdə Azərbaycanda gedən inkişaf prosesləri, bu günlərdə keçirilən VII Qlobal Bakı Forumu, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verilir.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev, "The Washington Times" qəzetinin müxbiri Monika Krouli, tanınmış amerikalı vəkil, Birləşmiş Ştatların mərhum Prezidenti Riçard Niksonun nəvəsi Kristofer Nikson Koks "Con Batçelor Şou"nun jurnalistlərinə müsahibə veriblər.

Tural Gəncəliyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün tarixindən, səbəb və nəticələrindən, ölkəmizin ərazisinin 20 faizinin işğal edilməsindən, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsindən söhbət açıb. O, münaqişənin həlli üçün Azərbaycanın ərazi bütövlüyünün bərpasının, qaçqınların və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının zəruriliyini qeyd edib.

Monika Krouli deyib ki, Azərbaycan cəmi iki onillik ərzində iqtisadi möcüzə yaratmağa nail olub. Bu isə uzaqgörən dövlət siyasəti nəticəsində mümkün olub. "The Washington Times" qəzetinin müxbiri, həmçinin



əlavə edib ki, Azərbaycan öz inkişafı ilə regiona və dünyaya iqtisadi nümunə olmaq yolunda qətiyyətlə irəliləyir.

Kristofer Nikson Koks isə Qlobal Bakı Forumu ilə bağlı təəssüratlarını bölüşüb. O, Qlobal Bakı Forumunun əhəmiyyətli bir tədbir olduğunu bildirib, müzakirə olunan mövzuların önəmini qeyd edib.

"Con Batçelor Şou" gündəlik həyatda aktual olan beynəlxalq hərbi, siyasi və iqtisadi mövzulara həsr olunur, ABŞ-da federal ABC Radio Şəbəkəsinə daxil olan müxtəlif ştat və şəhərlərdə çoxsaylı radiokanal tərəfindən həm canlı, həm də audioyazı formasında geniş yayımlanır. Həftənin hər günü yayımlanan bu proqram ABŞ-da milyonlarla dinləyici auditoriyasına malikdir.

**AZƏRTAC**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə martın 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2018-ci il 22 noyabr tarixində keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb və müvafiq dəyişikliklər təsdiq olunub.

İclasda bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi də müzakirə olunub. Komissiyanın qərarı ilə 2 saylı Şərur, 7 saylı Ordubad-Culfa, 15 saylı Yasamal birinci, 37 saylı Nizami birinci (Gəncə), 48 saylı Yevlax, 58 saylı Hacıqabul-Kürdəmir, 65 saylı Saatlı-Sabirabad-Kürdəmir, 67 saylı Cəlilabad şəhər, 76 saylı Lənkəran-Astara, 98 saylı Şəmkir şəhər, 109 saylı Balakən və 117 saylı Oğuz-Qəbələ seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

**AZƏRTAC**

# Genişmiqyaslı təlimlərin yekununa dair səyyar kollegiya iclası keçirilib

**Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin yekunlarına dair Müdafiə Nazirliyinin səyyar kollegiya iclası olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbər heyətinin, birlik və birləşmələrin komandir və qərargah rəislərinin, o cümlədən məsul zabitlərin iştirak etdikləri iclasda nazir, general-polkovnik Zakir Həsənov "Azərbaycan Ordusunun 2019-cu tədris ilinə vəzifələrinin dəqiqləşdirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Təlimlərin nəticələrini təhlil edən müdafiə naziri bildirib ki, qarşıya qoyulan vəzifələr tam icra olunub. Plana uyğun olaraq qoşunlar irimiqyaslı döyüş əməliyyatlarını uğurla yerinə yetiriblər. Təlimlər zamanı idarəetmə orqanları və qoşunların əməliyyat hazırlığı daha da təkmilləşdirilərək yeni səviyyəyə yüksəldilib, qərargahlar qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.




Nazir komandanlığın təlimə cəlb edilən qoşunları idarəetmə bacarığını və hərbi qulluqçuların döyüş əzmini yüksək qiymətləndirib.

General-polkovnik Z.Həsənov keçirilən təlimin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha kollegiya iştirakçılarının diqqətinə çatdırıb.

**AZƏRTAC**

# ADA Universiteti "Təmiz ölkəm" ekoloji layihəsinə start verib

**Martın 15-də ADA Universitetində bu ali təhsil ocağının və "Coca-Cola" şirkətinin birgə təşkilatçılığı ilə VII Bahar Gənclik Festivalı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev, "Coca-Cola" şirkətinin nümayəndələri, tələbələr iştirak ediblər.

Festival çərçivəsində ADA Universiteti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Coca-Cola" Fondu və "AzEkol" şirkətinin birgə əməkdaşlığı ilə "Təmiz ölkəm" layihəsinə start verilib.

Tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edən ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev bildirib: "ADA Universiteti "Coca-Cola" şirkəti ilə 2012-ci ildən bəri əməkdaşlıq edir. Bizim birgə həyata keçirdiyimiz "Ağac əkək, təbiətə töhfə verək" layihəsi uğurla həyata keçirilib. Layihə çərçivəsində ölkəmizdə ekoloji maarifləndirmə işləri görülüb və 100 minə yaxın ağac əkilib. Bu tədbir vasitəsilə start verdiyimiz "Təmiz ölkəm" layihəsi də ətraf mühitin qorunmasına yönəlib və inanırıq ki, biz yenə də müsbət nəticələr əldə edəcəyik".



həyata keçirilərək ölkəmizin ekologiyasının yaxşılaşdırılmasına öz töhfəsini verəcək".

Qeyd olunub ki, "Təmiz ölkəm" layihəsinin əsas məqsədi plastik kütlənin təkrar emalı barədə ictimaiyyt arasında maariflndirm işlərinin aparılmasını, plastik butulkaların toplanaraq tkrar emala göndrilmsini təbliğ etməkdir. Layihənin icrası cəmiyyətdə təkrar emal ənənəsinin formalaşdırılması, plastik tullantıların qruplaşdırılması üçün əlverişli platforma rolunu oynayacaq. Layihənin uğurla həyata keçirilməsi üçün Bakının əsas ərazilərində plastik butulkaların toplanması üçün xüsusi konteynerlər yerləşdiriləcək.





"Coca-Cola"nın Qafqaz üzrə kommunikasiya meneceri Elşad Fərzəliyev şirkətin Azərbaycanda ətraf mühitin qorunmasına verdiyi əhəmiyyəti vurğulayıb: "Sosial məsuliyyətli bir şirkət olaraq "Coca-Cola" hər zaman fəaliyyətdə olduğu ölkələrin inkişafı üçün müəyyən işlər görür. Bu ildən etibarən "Coca-Cola" və ADA Universitetinin birgə layihəsi olan "Təmiz ölkəm" layihəsinə start verilir. ümid edirik ki, bu layihə də ötən layihələr kimi uğurla

Festivalda Novruza həsr olunan sərgi, milli geyimlərimiz, Azərbaycanın müxtəlif xalça məktəblərinin nümunələri, ləziz bayram mətbəxinin şirniyyatları və ilaxır çərşənbənin özünəməxsus adət-ənənələri nümayiş etdirilib. ADA Universitetinin Bayraq meydanında quraşdırılmış və plastik şüşələrdən hazırlanmış nəhəng səməni maketi isə "Təmiz ölkəm" layihəsində "ikinci həyat" qazanmış uğurlu nümunələrdən biridir. Plastik səməni, həm də qədim Novruz adət-ənənəsi ilə müasir ekoloji durumu tərənnüm edir. Festivala qatılmış gənclər öz növbələrində istifadə etdikləri plastik butulkaları Bayraq meydanında yerləşdirilmiş xüsusi qablara ataraq "Təmiz ölkəm" layihəsinə öz dəstəklərini əyani olaraq göstəriblər.

Tədbir Azərbaycanın estrada müğənnilərinin çıxışları ilə davam edib.

**AZƏRTAC**

# Bədən Tərbiyəsi və İdman Akademiyasında təhlükəsizlik orqanlarının 100 illiyinə həsr olunan tədbir keçirilib





**Zəngin və mənalı ömrünün 25 ilini dövlət təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş ümummilli lider Heydər Əliyevin 1997-ci il martın 23-də imzaladığı Sərəncamla hər il martın 28-i Azərbaycan Respublikasının təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.**

Dövlət Təhlükəsizliyi Xidmətindən (DTX) AZƏRTAC-a bildiriblər ki, Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi və peşə bayramı ərəfəsində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tədbir keçirilib.

Tədbirdə DTX-nin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, Olimpiya və dünya çempionları, idman ictimaiyyətinin nümayəndələri, Akademiyanın müəllim və tələbə kollektivi iştirak edib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək, Ulu Öndərin abidəsi önünə gül dəstələri düzüblər.

Tədbir akademiyanın akt zalında davam etdirilib. Dövlət himni səsləndirildikdən sonra dünya şöhrətli siyasi xadim Heydər Əliyevin vətənpərvərlik və peşəkarlıq irsindən, eləcə də Azərbaycan təhlükəsizlik orqanlarının inkişafındakı xidmətlərindən, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövlət təhlükəsizliyi orqanlarına diqqət və qayğısından bəhs edən sənədli film nümayiş olunub.

Sonda Bakı şəhəri Tofiq Quliyev adına 12 saylı 11 illik musiqi məktəbinin şagirdlərinin ifasında Azərbaycan xalq mahnıları, o cümlədən ulu öndər Heydər Əliyevin sevimli mahnıları, dünya və milli musiqi klassiklərimizin əsərlərindən təqdim edilən hissələr tədbir iştirakçılarında xoş ovqat yaradaraq alqışlarla qarşılanıb.

**AZƏRTAC**

# VII Qlobal Bakı Forumu ikinci iş gününü panel iclaslarla davam etdirib

## "Yaxın Şərqdə sülh və təhlükəsizlik"

Yeddinci Qlobal Bakı Forumu ikinci iş gününü panel iclaslarla davam etdirib.

Forum çərçivəsində "Yaxın Şərqdə sülh və təhlükəsizlik" mövzusunda panel iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Ərəb Liqasının sabiq baş katibi Əmr Musanın moderatorluğu ilə keçirilən panel iclasda Yaxın Şərqdə sülhə nail olmağın yollarına dair müzakirələr aparılıb. Qeyd edilib ki, regionda sülhün bərqərar olunması müəyyən qüvvələrin əlindədir. Bəzən münaqişə bölgə dövlətləri tərəfindən qızışdırılır. Bu səbəbdən problemin həlli çətinləşir.

İslam Tədqiqatları Mərkəzinin sədri Turki Əl Faysal bin Əbdüləziz Əl Səud deyib ki, Yaxın Şərqdə münaqişələr bütün dünyaya ziyan vurur, kütləvi insan tələfatına yol açır. Münaqişənin fəsadları artıq regionun hüdudlarını aşaraq bütün dünyaya yayılıb. Münaqişə tərəfləri öz aralarında razılığa gəlməsələr, Yaxın Şərqdə vəziyyət daha da gərginləşə bilər. Dünya birliyi də bu məsələdə öz sözünü deməlidir.

Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin bildirib ki, son onilliklərdə Yaxın Şərqdə bir sıra münaqişələr baş verib. Bu da regionda insan tələfatına səbəb olur və inkişafı ləngidir. "Ərəb baharı" adlandırılan inqilablar, eyni zamanda, terrorçuluq və yeni münaqişə ocaqları regiona dağıdıcı təsir göstərir. Populist və avtoritar liderlərin meydana çıxması münaqişələri dərinləşdirir. Təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə gəldikdə, bu, bir qədər mürəkkəb görünür. Sülhdən danışdıqda ölkədaxili problemləri və imkanları unutmaq olmaz. Burada təhsilin, texnologiyanın aşağı səviyyəsi münaqişəni daha da qızışdırır. Odur ki, regionun yeni sosial təmaslara ehtiyacı var.

Milli zəmində münaqişələrə dini qarşıdurmaların da əlavə olunduğunu bildirən İsrailin sabiq Baş naziri Tzipi Livni qeyd edib ki, problemin səbəbkarı təkcə İsrail deyil. Burada münaqişənin qızışmasının səbəbi müəyyən qüvvələrin toqquşan maraqlarıdır. Danışıqlarda tərəflər İsrail və Fələstindir. Sülh əldə edilməsi bu ölkələrin xalqlarından asılıdır. "Tərəflər arasında etimad itib. Çünki münaqişədə İsrail və Fələstini dəstəkləyən qüvvələr ortaya çıxır. İstəmirik ki, regionda Suriyada cərəyan edən proseslər baş versin. Burada sərt bir liderliyə ehtiyac var. İsraildə əhalinin 40 faizi ərəblərdir. Onlar yəhudilərlə eyni hüquqa malikdir. İsraili hər şeyə görə günahlandırmaq düzgün deyil", - deyə Tzipi Livni vurğulayıb.

İordaniyanın keçmiş Baş naziri Taher Masri çıxış edərək deyib: "Sülh haqqında danışdıqda konkret məsələlərə diqqət yetirmək lazımdır. İsrailin qərarları sülhün bərqərar olmasına maneçilik törədir. Problemin köklərini araşdırmaq lazımdır. Biz sülh prosesini dəstəkləyirik. Cihadçılar dediyiniz qüvvələr İslamı təmsil etmirlər. Onların mövcud olması, əksinə, bizim əleyhimizədir".

İtaliyanın sabiq xarici işlər naziri Ancelino Alfano vurğulayıb ki, diqqət Avropaya axışan Suriya qaçqınlarına yönəlməlidir. Yaxın Şərqdəki problem qaçqınların artmasına səbəb olur. Bu proses "Ərəb baharı"ndan sonra gücləndi. Yəməndə baş verən vətəndaş müharibəsi Aralıq dənizi regionunu əhatə edir. Bu da münaqişənin Yaxın Şərq hüdudlarından çıxması deməkdir. Münaqişənin həlli üçün əlverişli şərait yaranıb. Çünki müzakirələr aparmağa imkan verən kifayət qədər beynəlxalq təşkilatlar mövcuddur.

Yaxın Şərqdə baş verən proseslərin tarixinə nəzər salan İslam Əməkdaşlığı Təşkilatının sabiq baş katibi Ekmələddin İhsanoğlu deyib: "Osmanlı imperiyasının süqutundan sonra bölgədə yeni ərəb ölkələri meydana gəldi. Daha sonra sovet imperiyasının yaranması nəticəsində dünyada və regionda ikiqütblü siyasət hökm sürməyə başladı. SSRİ-nin süqutundan sonra bu təkqütblü siyasətlə əvəzləndi. Hazırda isə yeni siyasi mühitin formalaşması prosesi gedir. Dünyada güclərin bərabər paylanmasına nail olmaq lazımdır. Yalnız bu halda regionda sülh prosesi baş tuta bilər".

Panel müzakirələrlə davam edib.

* * *

## "Balkanlar: bu günü və gələcəyi"

"Balkanlar: bu günü və gələcəyi" adlı panel iclas Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciyanın moderatorluğu ilə keçirilib.

İclasda çıxış edən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç bildirib ki, ötən əsrin sonlarında Balkanlarda başlanan müharibələr başa çatsa da, hazırda bu regionda hələ də həllini gözləyən məsələlər var. Müharibə bu ölkələrdə yaşayan insanların həyatına çox təsir edib. Uzun sürən çalışmaların nəticəsində Balkanlarda sabitliyin təmin olunması istiqamətində xeyli nailiyyətlər əldə edilib.

Rumıniyanın Baş nazirinin müavini Ana Birçal Azərbaycanın qlobal məsələlərin müzakirə məkanına çevrildiyini deyib və bu Forumu nümunə göstərib. O, bu kimi tədbirlərə uğurla ev sahibliyi etdiyi üçün Azərbaycan dövlətinə minnətdarlıq edib.

Baş nazirin müavini Avropada sabitliyin təmin olunması istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, hazırda Avropada gərgin ictimai-siyasi vəziyyət müşahidə edilir. Vəziyyəti sabitləşdirmək üçün Avropa İttifaqına daxil olan ölkələr birgə fəaliyyət göstərməlidirlər.

Serbiyanın keçmiş Baş naziri Mirko Tsvetkoviç bir sıra Balkan ölkələrinin hələ də siyasi keçid dövrünü yaşadığını deyib. Qeyd edib ki, bəzi beynəlxalq güclər bu amildən öz mənafeləri naminə istifadə edirlər. Bu isə bölgədə sabitliyi təmin etmək işində problemlər yaradır. Lakin Balkan ölkələrinin əlverişli coğrafi-strateji mövqeyi və digər müsbət cəhətlər bu bölgənin aydın gələcək gözlədiyini deməyə əsas verir.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin keçmiş sədri Mladen İvaniç Balkanlarda iqtisadi və siyasi sabitliyin qlobal güclərdən çox asılı olduğunu deyib. O bildirib ki, beynəlxalq aktorların mübarizəsi kiçik dövlətlərin zərər görməsinə səbəb olur. Belə güclər inkişaf etməkdə olan ölkələrin mənafeyini, ümumiyyətlə, nəzərə almırlar.

Xorvatiyanın keçmiş Baş naziri Yadranka Kosor yenidən Azərbaycanda olmaqdan məmnunluq ifadə edib. O, Forumda iştirak etmək üçün dəvətə görə təşəkkürünü bildirib. Y.Kosor Balkan bölgəsinin etnik baxımdan zəngin olduğunu deyib. Əlavə edib ki, burada bolqarlar, rumınlar, xorvatlar, slovenlər və digər xalqlar yaşayırlar. Bu zənginliyin müəyyən mənfi nəticələri də var. Belə ki, burada etnik rəngarənglik siyasi, bəzən də hərbi münaqişələrə gətirib çıxarır.

Albaniyanın keçmiş Prezidenti Recep Meydani Balkanların tarixboyu bir çox dəyişikliklərə, müharibələrə məruz qaldığını, buna görə də bu ölkələrin keçmişdən ibrət götürməli olduğunu deyib. Əlavə edib ki, hazırda bu regionda sabitlik hökm sürür və xoşbəxt gələcək qurmaq üçün bu, yaxşı fürsətdir. Avropa İttifaqına daxil olmaq bu region ölkələri üçün vacib məsələdir. Regional əməkdaşlıq nəticəsində bölgədə sülh əldə edilib.

Albaniyanın keçmiş Prezidenti Buyar Nişani belə tədbirlərin uğurla keçirilməsinə görə Azərbaycan dövlətinə təşəkkür edib. Qeyd edib ki, bu Forumun əhəmiyyəti ildən-ilə artır. B.Nişani bildirib ki, Balkanların əlverişli coğrafi mövqeyi tarixən burada beynəlxalq güclərin maraqlarının toqquşmasına səbəb olub. Hazırda da bu proses davam edir. Bu isə regionda siyasi gərginliyə gətirib çıxarır. XX əsrin sonlarında baş verən proseslər buna bariz nümunədir.

Bolqarıstanın keçmiş Prezidenti Petar Stoyanov Balkan ölkələrinin Avropa İttifaqına daxil edilməsi məsələsində ədalətsizliklər olduğunu, bəzi əsassız iradların göstərildiyini bildirib. O deyib ki, bu ölkələrin Avropa İttifaqına daxil edilməməsi onların iqtisadi baxımdan geri qalmasına səbəb olur.

Regionun inkişafı üçün atılan addımlar barədə məlumat verən Monteneqronun keçmiş Prezidenti Filip Vuyanoviç bu işdə əldə edilən uğurların heç də asan başa gəlmədiyini deyib. Qeyd edib ki, regionun coğrafi baxımdan əhəmiyyətli mövqedə yerləşməsi burada mütəmadi olaraq böyük güclərin təhriki ilə münaqişələrə gətirib çıxarır.

* * *

## "Dünya üçün Çinin inkişafı və imkanları"

Forum çərçivəsində keçirilən növbəti panel iclas "Dünya üçün Çinin inkişafı və imkanları" mövzusuna həsr edilib.

Panel iclasının moderatoru, Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonq Çinin dünya iqtisadiyyatında oynadığı rol, həyata keçirdiyi nəhəng layihələr barədə məlumat verib.



Şanxay Əməkdaşlıq Təşkilatının keçmiş baş katibi Rəşid Alimov bildirib ki, Çin investisiyaların cəlb edilməsi sahəsində dünya miqyasında lider ölkədir. Çinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsinə toxunan R.Alimov vurğulayıb ki, bu, investisiya baxımından ən böyük layihələrdən biridir.

Laosun xarici işlər nazirinin müavini Khamphao Ernthavanh Bakıda yüksək səviyyədə təşkil edilən belə bir tədbirə görə Azərbaycan hökumətinə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib. O qeyd edib ki, Çin iqtisadiyyatının sürətli artımı dünyada sülhün və təhlükəsizliyin təmini baxımından əhəmiyyətə malikdir. Çünki Çinin həyata keçirdiyi layihələrdə demək olar ki, dünyanın hər iki ölkəsindən biri iştirak edir. Nazir müavini 2020-ci ildə Çin ilə Laos arasında dəmir yolunun açılacağını da diqqətə çatdırıb.

Macarıstanın sabiq Baş naziri Peter Meddyeşi deyib ki, Çin dünyada sabitləşdirici gücə malikdir. Hazırda bu ölkədə iqtisadiyyatın müxtəlif sahələrində sürətli inkişaf müşahidə olunur ki, bu da Çinin dünya iqtisadiyyatında böyük rol oynamasına imkan yaradır.

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin keçmiş müavini Devid Merkel diqqəti "Bir kəmər, bir yol" layihəsinə yönəldərək qeyd edib ki, qədim İpək yolunun bərpası sayəsində İndoneziyadan Avropaya qədər yeni bir marşrut yaradılır və dünya əhalisinin dörddəüçü bu layihədən faydalanacaq. Bu layihə iqtisadiyyatın inkişafına, Azərbaycandan da keçməklə Avropaya yük daşımalarının daha qısa məsafə ilə və az müddətdə həyata keçirilməsinə imkan verəcək. O bildirib ki, Prezident İlham Əliyev Forumun açılışında söylədiyi nitqdə Şərq-Qərb dəhlizinin və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin bu layihənin bir hissəsi olduğunu bildirib.

Rumıniyanın sabiq Prezidenti Petre Roman deyib ki, Çin infrastruktur sahəsində dünyada dominant mövqeyə malikdir. Son illərdə bu ölkə innovasiyalar sahəsində də uğurlu nəticələr əldə edib.

Yeni Zelandiyanın sabiq Baş naziri Cennifer Şipli Çinin yoxsulluğun aradan qaldırılması ilə bağlı əldə etdiyi müsbət nəticələrə dünyanın hələ də həsəd apardığını vurğulayıb. Pekinin nəhəng iqtisadiyyata malik olduğunu deyən sabiq Baş nazir bunun sayəsində Çinin öz təsirini getdikcə artırdığını diqqətə çatdırıb. O, digər ölkələrin Çinin bank sistemi sahəsindəki təcrübəsindən faydalana biləcəyini qeyd edib.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç Çinin hazırda regiona ən çox töhfə verən ölkə olduğunu vurğulayıb. O deyib ki, böhran dövründə bu ölkə 750 milyondan çox insanı yoxsulluq vəziyyətindən çıxarıb. Miqrant probleminə toxunan Serbiyanın sabiq dövlət başçısı bu məsələnin həll olunmasına Avropa ölkələri tərəfindən lazımi dəstək göstərilmədiyini bildirib.

Sloveniyanın sabiq Prezidenti Danilo Türk diqqətə çatdırıb ki, yeni texnologiyalar Çinin dünyaya verdiyi töhfələrdən biridir. O, bəzi Avropa ölkələrinin "ağıllı şəhər" yaratmaq üçün Çinin yüksək texnologiyalarından yararlanmaq niyyətində olduğunu söyləyib.

Çinin Renmin Universitetinin Çunyang Maliyyə Araşdırmaları İnstitutunun icraçı dekanı Vanq Ven hazırda ölkəsinin inkişaf potensialının daha yüksək olduğunu deyib. O, Çində yoxsulluğun azaldılması, korrupsiyanın aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb.

* * *

## "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu"

Yeddinci Qlobal Bakı Forumu çərçivəsində daha bir panel iclas "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" mövzusunda keçirilib.

İclasa moderatorluq edən fiziologiya və tibb üzrə Nobel mükafatı laureatı, Milli Səhiyyə və Milli Onkologiya İnstitutunun sabiq direktoru Harold Varmus elmi layihələrin maliyyələşdirilməsinin, elmi infrastrukturun inkişaf etdirilməsinin əhəmiyyətindən, elmi qurumlar və hökumət arasında əməkdaşlığın təşkili məsələsindən danışıb. O, siyasi müstəvidə qərarların elmi cəhətdən əsaslandırılmasının zəruriliyini qeyd edib.

İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Komissiyanın sədri, Hindistanın Baş nazirinin iqtisadi məsələlər üzrə müşaviri Rajendra Paşauri iqlim dəyişiklikləri problemlərinin aradan qaldırılmasında elmin rolundan danışıb. Qeyd edib ki, elm gələcəkdə baş verə biləcək təhlükələrə nəzər sala bilər. Elmi ictimaiyyətin diqqətini iqlim dəyişiklikləri ilə bağlı intensiv hadisələrə daha çox cəlb etmək lazımdır. Problemi bir neçə ölkə həll edə bilməz. Bu məsələdə, həmçinin alimlər ünsiyyət qurmalı, bacarıqları ortaya çıxarmalıdırlar.

Yeni Zelandiyanın sabiq Baş naziri Ceyms Bolger təmsil etdiyi ölkədə ətraf mühitin qorunmasının bir hərəkata çevrildiyini deyib. O, Yeni Zelandiyanın GMO-ları qəbul etməməsi ilə bağlı səbəbləri diqqətə çatdırıb, habelə ölkəsində heyvandarlığın çox inkişaf etdiyini vurğulayıb.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldin iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində insanların həyat tərzinin dəyişdirilməsi məsələsinə toxunub, bu sahədə medianın rol oynayacağını vurğulayıb. O, elm adamlarının müstəqilliyinin qorunub saxlanması, onların siyasi liderlərin təsiri altına düşməməsi məsələsinin vacibliyini qeyd edib. Habelə qanunvericilər tərəfindən sosial media ilə bağlı məsuliyyət müəyyənləşdirilməsinin zəruri olduğunu bildirib.

Kanada Beynəlxalq İnkişaf Agentliyinin sabiq prezidenti, UNİCEF-in icraçı direktorunun sabiq müavini Marqaret Katley-Karlson qeyd edib ki, iqlim dəyişikliyi probleminə elmin bütün sahələrini cəlb etmək lazımdır. Məsələn, sosiologiya cəlb edilərsə, bu sahənin mütəxəssisləri iqlim dəyişikliyinin cəmiyyətdə hansı dəyişikliyə səbəb olacağını deyə bilər.

Rumıniyanın sabiq Prezidenti Emil Konstantinesku panel sessiyanın mövzusuna gələcəklə əlaqədar strategiya məsələsi istiqamətində yanaşıb. O, tezliklə bilik iqtisadiyyatının bərqərar olacağını, cəmiyyətin də buna uyğun amillərlə inkişaf edəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, biliklərə əsaslanan dəyərlərə qiymət verilməlidir. Bu sahədə mədəniyyət mütəxəssisləri də öz sözünü deməlidirlər. Elmə əsaslanan qərarlar həqiqəti əks etdirir.

Qırğız Respublikasının sabiq Baş naziri Comart Otorbayev bu cür müzakirələrin insanları intellektual debatlara ruhlandırdığını bildirib. O, bərpaolunan enerji mənbələrindən istifadənin əhəmiyyətini vurğulayıb.

Mövzu ətrafında müzakirələrdə hər hansı problemin həllində alimlərin fikirlərinə diqqət yetirilməsinin zəruriliyi qeyd olunub. Həmçinin iqlim dəyişiklikləri problemlərinin həllinə gəncləri daha çox cəlb etməyin vacibliyi bildirilib.

Panel iclaslarda mövzularla bağlı diskussiyalar aparılıb, suallar cavablandırılıb.

**AZƏRTAC**

# Belarus Respublikasının İstintaq Komitəsinin nümayəndə heyəti Bakının mədəni və tarixi abidələri ilə tanış olub



**Azərbaycanda səfərdə olan Belarus Respublikası İstintaq Komitəsinin sədri İvan Noskeviçin rəhbərlik etdiyi nümayəndə heyəti Bakının mədəni və tarixi abidələri ilə tanış olub.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Heydər Əliyev Mərkəzinə gələn qonaqlara Mərkəz haqqında məlumat verilib. Qeyd edilib ki, Mərkəz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, elm, təhsil və mədəniyyətin inkişafına xidmət edən layihələrin həyata keçirilməsi, ölkəmizin tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, regional və beynəlxalq konfrans və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyət göstərir.



Heydər Əliyev Mərkəzi ilə tanışlıq nümayəndə heyətinin üzvlərində zəngin təssürat yaradıb.

Nümayəndə heyəti daha sonra 5 saylı Bakı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə də tanış olub.

Qonaqlara "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Bildirilib ki, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə məmur-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edən "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin etmək məqsədilə yaradılıb.

Yaradılmış şərait və iş prinsipi ilə tanış olan nümayəndə heyəti "ASAN xidmət"in kollektivinə fəaliyyətində uğurlar arzulayıb.

**AZƏRTAC**

# Qərbi Azərbaycana Qayıdış Birliyi fəaliyyətini genişləndirir

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışlar. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indiki Ermənistan adlandırılan ərazidənmin illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli, 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur.

Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki ata-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritat-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikiyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə ermənin şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamışdır.

Erməni daşnakları öz havadarlarının köməyi ilə 1988-89-cu illərdə Qərbi Azərbaycandan soydaşlarımızın kütləvi surətdə köçürülməsini çox qəddarlıqla, vəhşiliklə həyata keçirmiş, ermənipərəst Qorbaçovun satqınlığı sayəsində qarlı-şaxtalı qış günlərində 250 mindən çox soydaşımız qədim Oğuz elləri məcburən tərk etmişlər.

Qərbi azərbaycanlıların öz etnik torpaqlarından köçürülməsindən 30 ildən çox bir vaxt keçir. Neçə illər ki, Vedibasar, Göyçə mahalı, Zəngibasar, Ağbaba, Zəngəzur və digər torpaqlarımız erməni tapdağı altındadır. Xalqımıza məxsus olan qədim mədəniyyət abidələrimiz ermənilər tərəfindən dağıdılıb məhv edilir. Haqq-ədalət tapdanır, ermənilər öz məkrli niyyətlərindən əl çəkmək istəmirlər. Prezident İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin dəyişdirilməsi 1905-1918-ci illərdə azərbaycanlı əhalisini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir".**

Beləliklə, tarixən Qərbi Azərbaycan olan (indiki Ermənistan) ərazidən azərbaycanlıların deportasiyası 1905-1907-ci illərdən başlanmış, daşnak quldurlar tərəfindən 1918-1920, 1948-1953-cü illərdə davam etdirilmiş və XX əsrin 80-ci illərinin axırlarında tam başa çatdırılmışdır.

Vurğulamaq lazımdır ki, azərbaycanlılara məxsus olan qədim İrəvan şəhəri, xalqımıza məxsus olan digər ərazilər neçə illərdir ki, düşmən tapdağındadır. Bu gün öz əzəli torpaqlarından didərgin düşmüş Qərbi Azərbaycanlılar gecə-gündüz Vətən həsrəti çəkir, xəyal dənizində şam tək əriyir, yaşlı nəslin nümayəndələri Göyçə gölünün nəğməli sahillərinə, Zəngəzura, Ağbaba ellərinə və digər əzəli torpaqlarımıza qayıdacaqların ı səbirsizliklə gözləyirlər.

İnanırlar ki, günlərin bir günündə türk qılıncı işğalçıların başına dəyəcək, köç karvanları geriyə dönəcək, qərbi azərbaycanlılar hər qarışında ayaq izləri qalmış ata-baba torpaqlarına qovuşacaqlar.

Ermənistan adlanan ərazilərdən qovulmuş soydaşlarımızın öz əzəli torpaqlarına qayıtması, hüquqlarının qorunması istiqamətində Qərbi Azərbaycana Qayıdış Birliyi məqsədyönlü iş aparır. Keçirilən toplantılarda erməni daşnaklarının zaman-zaman türk xalqlarına qarşı törətdikləri terror hadisələrindən, zülm və işgəncələrdən söhbət açılır, bildirilir ki, beynəlxalq təşkilatlar ermənilərin qeyri-insani hərəkətlərinə göz yumur, birmənalı şəkildə daşnak nankorlarını dəstəkləyirlər.

Bu günlərdə Qərbi Azərbaycana Qayıdış Birliyinin növbəti yığıncağı keçirildi. Tədbirdə yurd həsrəti insanlar, ziyalılar, gənclər iştirak edirdilər.

Birliyin sədri Rizvan Talıbov çıxış edərək bildirdi ki, Qərbi Azərbaycanlılar ermeni faşistlərinin törətdikləri qanlı cinayətlərə, dünyada analoqu olmayan vəhşiliklərə dözə bilməz! Gec-tez haqq-ədalət zəfər çalacaq, ata-baba yurd yerlərimizdə "Cəngi", "Misri" çalınacaq, azəri igidləri qurşaq tutacaq, erməni daşnaklarını lərzəyə salacaqlar.

Rizvan Talıbov sözünə davam edərək vurğuladı ki, terror, etnik təmizləmə, separatçılıq yolunu seçmiş ermənilər və onların faşist ideyalı "Daşnaksütyun" partiyası daim Qərbi Azərbaycan torpaqları və azərbaycanlı əhalinin faciəsi hesabına öz mənfur məqsədlərinə nail olmuşlar. Xalqımız ümidlə yaşayır və inanırlar ki, Prezident cənab İlham Əliyevin titanik səyi nəticəsində Qərbi Azərbaycandakı qədim yurd yerlərimiz geri qaytarılacaq, erməni quldurlarının "dənizdən-dənizə", "böyük Ermənistan" xülyası reallığa çevrilməyəcəkdir.

Qərbi Azərbaycana Qayıdış Birliyinin təsis yığıncağında Sabir Rüstəmov, Lətafət Aslanova, Qəhrəman Qəhrəmanov, Rövşən Cəlilov, Maarif Məhərrəmbəyli, Əli Vəliyev, Namiq Aslanov, Oqtay Mirbabayev, Ələsgər Talıboğlu, Vüqar Abbasov, Bayram Əhmədov, Nəzakət Zeynalova, Tamam Uluxanlı və başqaları çıxış edərək azərbaycanlıların Qərbi Azərbaycandan mərhələli deportasiyasından, erməni şovinistlərinin zaman-zaman havadarlarının köməyi ilə xalqımıza qarşı soyqırım hadisələrindən söhbət açdılar. Vurğuladılar ki, azərbaycanlıların haqlı mövqeləri doğru-düzgün dünya ictimaiyyətinə çatdırılmalıdır.

Qərbi Azərbaycana Qayıdış Birliyinin təsis yığıncağında ziyalılardan ibarət Ağsaqqallar Şurasının üzvləri seçildi.

**Qədir ASLAN,**
**"Respublika".**

# Analitik kimya kafedrasının elmi nailiyyətləri

**Bakı Dövlət Universitetinin Analitik kimya kafedrasının yarandığı gündən 80 ildən çox bir vaxt keçir. Bu, böyük və şərəfli bir tarixdi. Yarandığı vaxtdan bu günə kimi kafedrada çalışan görkəmli elm xadimlərinin fəaliyyətini göz önünə gətirdikcə hədsiz qürur, fərəh hissi keçirirık.**



Xatırladaq ki, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən təsis edilmiş Bakı Dövlət Universitetinin nəzdində yeni kafedralar yaradılmağa başlanıldı. Belə kafedralardan biri də 1935-ci ildə fəaliyyətə başlayan Ümumi və qeyri-üzvi kimya kafedrasının bazasında yaradılan və bu gün 80 illik yubileyini qeyd etdiyimiz Analitik kimya kafedrası oldu. Dosent Məmmədəmin Hacıməmməd oğlu Əfəndinin rəhbərliyi altında fəaliyyətə başlayan kafedra onun yüksək təşkilatçılığı sayəsində qısa vaxt ərzində böyük uğurlar qazandı. Məmmədəmin Əfəndi yetərincə təcrübəli bir alim idi. 1934-1937-ci illər arası o, həm də kimya fakültəsinin ilk dekanı olaraq böyük təcrübə qazanmışdı. Ondan sonra dörd il müddətində Analitik kimya kafedrasına rəhbərlik etmiş Vsevolod Fyodoroviç Negreyev korroziya sahəsində ölkəmizdə kifayət qədər tanınan bir alim idi. Kafedranın özünü təsdiq etməsi prosesində bu görkəmli alimlərin müstəsna xidmətləri olmuşdur.

1941-ci ildən 1979-cu ilə qədər kafedraya professor Murtuza Qasım oğlu Əhmədli rəhbərlik etmişdir. Həmin illərdə kafedrada Cəlal Həsənov, Qeybulla Abbasov, Cümşüd Əfəndiyev, Ənvər Beşirov, Polina Qranovskaya, Rəfiqə Əliyeva, Dəmir Qəmbərov, Tuba Abdullayeva, Elianora Quluşenko, Almara Əyyubova, Ərəstun Məlikov, Şahid İslamov, Səltənət Əzimova, Asiyə Talıbova, Aliyə Qafarova, İbad İbadov, Rəfael Rzayev, Abuəli Hüseynov, Fəridə Ruvinova, Tamella Babayeva, Elmira Məlikova, Rəna Nemətova, Ülkər Babaxanova, Şahbala Əliyev, Kütəvvər İmanova, Sofa Bratzik, Zemfira Əsədova, Fəridə Aslanova, Suraxanım Məmmədova və Zülfiyyə Babayeva fəaliyyət göstərmişlər. O illərdə kafedranın əsas elmi istiqaməti yeni üzvi reagentlərin sintezi və onların qeyri-üzvi maddələrin analizində tətbiqi ilə yanaşı, məlum üzvi reaktivlərin analitik imkanlarının artırılmasından ibarət olmuşdur.

Kafedranın əməkdaşları tərəfindən kompleks əmələgəlmə reaksiyaları daha da təkmilləşdirilmiş və mürəkkəb tərkibli üçkomponentli sistemlər tədqiq edilərək fotometrik analiz metodunun həssaslıq və seçiciliyinin artırılma imkanları araşdırılmışdır. Kafedrada "metal - qeyri-üzvi reagent - amin" sistemlərinin ekstraksiya imkanları araşdırılaraq yüksək analitik xassələrə malik nəticələr əldə edilmiş və bu nəticələr respublika və keçmiş İttifaqda nəşr olunan elmi jurnallarda dərc edilmişdir. Bununla yanaşı həmin dövrdə kafedrada digər istiqamətlərdə də elmi-tədqiqat işləri aparılmış - yerli xammal əsasında gips və bromlu preparatların alınması texnologiyası işlənib hazırlanmış, Respublika Nazirlər Sovetinin tapşırığı ilə suiti piyinin hidrogenləşməsi və baramaların soyuq kimyəvi açılma metodu işlənilmişdir.

Keçən əsrin 60-cı illərindən başlayaraq Analitik kimya kafedrasında elmi-tədqiqat işləri yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Məhz həmin dövrlərdə yüksək elmi potensiala malik gənclər kafedrada işə götürülmüş və aspiranturaya qəbul edilmişdir. Həmin dövrdən başlayaraq keçid metalları və nadir-torpaq elementlərinin binar və qarışıqliqandlı kompleks birləşmələrinin fotometrik və ekstraksiyalı-fotometrik tədqiqinə həsr edilmiş geniş miqyaslı elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Aparılan tədqiqat işlərinin məntiqi nəticəsi olaraq kafedrada 18 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda fotometrik analiz metodunun tətbiqi və inkişafı məhz BDU-nun Analitik kimya kafedrası ilə bağlıdır. Kafedranın əməkdaşları keçmiş SSRİ-nin bir sıra elmi-tədris müəssisələri, eləcə də akademiklər N.N.Semyanov, İ.P.Alimarin, Y.A.Zolotov, İ.V.Tananayev, A.K.Babko, İ.M.Korenman, N.S.Poluektov və b. kimi görkəmli alimlərlə sıx elmi əməkdaşlıq edərək respublikada analitik kimyanın inkişafında və kimyaçı alimlərin yetişməsinə mühüm rol oynamış və onlara rəhbərlik etmişlər. O dövrlər universitetin Kimya, Biologiya, Coğrafiya və Geologiya ixtisaslarına "Analitik kimya" fənni tədris olunurdu. Məhz həmin dövrdə professor M.Q.Əhmədlinin müəllifi olduğu "Vəsfi kimyəvi analiz" adlı dərslik çap edilmişdir.

1979-cu ildən 2006-cı ilə kimi kafedraya professor Dəmir Heydər oğlu Qəmbərov rəhbərlik etmişdir. Həmin illərdə kafedrada Rəfiqə Əliyeva, Famil Çıraqov, Almara Əyyubova, Ərəstun Məlikov, Ənvər Bəkirov, Polina Qranovskaya, Tuba Abdullayeva, Rizvan Abdullayev, Əhməd Babayev, Xəlil Nağıyev, Rəhim Süleymanov, Abuəli Hüseynov, Sərdar Quliyev, Səltənət Əzimova, Asiyə Talıbova, İbad İbadov, Gülşən Muğalova, Polad Məmmədov, Mehriban Sadıqova, Suraxanım Məmmədova, Nüşabə Xəlilova, Zərifə Vəliyeva, Rəfael Rzayev, Rəhimə Mahmudova, Mehriban Qayıbova, Zülfiyyə Babayeva, Arif Sadıqov, Ülviyyə Güllərli, Məmməd Məmmədov, Güllü Güllərli, Rəna Nemətova, Minayə Məmmədova, Fəqanə Xəlilova, Zemfira Əsədova, Fəridə Aslanova, Zöhrə Adıgözəlova və Maral Abbasova çalışmışdır.

Həmin dövrdə Analitik kimya kafedrasında piroqallol əsasında yeni sinif üzvi reaktivlərin sintez metodikası işlənib hazırlanmış və onların ədəbiyyatdan məlum olan azobirləşmələrlə müqayisədə daha yüksək analitik xarakteristikalara malik olduğu müəyyən edilmişdir. Bu sinif reaktivlər Al(III), Ga(III), İn(III), Bi(III), Mo(VI), Sn(II), Ti(IV) və s. metal ionlarının fotometrik, ekstraksiyalı-fotometrik, ekstraksiyalı-atom-absorbsion və polyaroqrafik təyini üçün istifadə edilmişdir. Həmin illərdə BDU-nun Üzvi kimya kafedrasında sintez edilmiş asetilasetonun alkil törəmələri Analitik kimya kafedrasında geniş tədqiq edilmiş və analitik imkanları öyrənilmişdir. Bu üzvi reaktivlər kafedrada bir sıra metal ionlarının qatılaşdırılması, ekstraksiyası və fotometrik təyini üçün istifadə edilmişdir. Eləcə də həmin dövrdə BDU-nun Yüksək molekullu birləşmələr kafedrasının əməkdaşları ilə də birlikdə elmi-tədqiqat işləri aparılmış, həmin kafedrada sintez edilmiş sorbentlərdən istifadə edilməklə radioaktiv xassəli ionların qatılaşdırılması üçün yeni metodikalar işlənib hazırlanmışdır. Qeyd etmək lazımdır ki, kafedra əməkdaşları tərəfindən təklif edilmiş bu metodikalar sənaye miqyasında öz tətbiqini tapmışdır. Məhz həmin dövrdə kafedrada Moskva Təcrübi metal zavodu ilə bağlanılmış təsərrüfat müqaviləsinə əsasən əritilərdə metalların miqdarının təyininə həsr edilmiş yüksək məbləğə malik tədqiqat işləri yerinə yetirilmişdir. Piroqallol əsasında sintez edilmiş üç azobirləşmə Moskva şəhərində Boykov adına kimyəvi reagentlər zavodunda keçmiş İttifaq miqyasında sintez edilmiş və satışa buraxılmışdır. Qeyd etmək lazımdır ki, bu reaktivlər hazırda da bir sıra metal ionlarının təyini üçün geniş tətbiq olunur. Bu illər ərzində kafedranın əməkdaşlarının müəllifləri olduğu "Analitik kimya (Vəsfi analiz)", "Titrimetrik analiz", "Qravimetrik analiz" və "Fotometrik analiz" adlı dərs vəsaitləri və metodik vəsaitlər nəşr edilmişdir.

Kafedrada Vyetnam, Suriya, Əlcəzair və Misir respublikaları kimi xarici ölkələr üçün analitik kimya üzrə mütəxəssislər yetişdirilmişdir. Kafedra əməkdaşları keçmiş SSRİ-nin digər respublikalarından S.B.Savvin, A.B.Makarov, O.Q.Tatayev, B.B.Melnik, U.M.Merterova və başqa aparıcı analitik kimyaçıları ilə sıx əməkdaşlıq etmişlər.

2006-cı ildən başlayaraq kafedraya rəhbərlik etdiyim vaxt ərzində mənimlə bir yerdə çalışan akademik R.Ə.Əliyeva, professor X.C.Nağıyev, dosentlər R.Ə.Abdullayev, Ə.Q.Babayev, P.R.Məmmədov, G.R.Muğalova, elmlərı namizədləri G.H.Güllərli, F.Q.Xəlilova, M.F.Məmmədova, S.Z.Həmidov, Ü.A.Güllərli, eləcə də M.N.Namazov, F.T.Aslanova, Z.L.Əsədova, L.Ş.Babayeva və başqaları öz sahələrində uğurlu nəticələr əldə etmişlər. Respublikamızda Analitik kimya ixtisası üzrə ilk və yeganə akademik olan Əliyeva Rəfiqə Əlirza qızı bütün elmi-pedaqoji fəaliyyətini bu kafedra ilə bağlamışdır. Akademik R.Ə.Əliyevanın rəhbərliyi altında bu illər ərzində kafedrada əsası əvvəlcədən qoyulmuş elmi istiqamətlər davam etdirilməklə yanaşı, yeni istiqamətlərdə də elmi-tədqiqat işləri aparılmışdır. Hazırda kafedrada ℬ-diketonlar əsasında yeni azobirləşmələrin sintezi və onların metallarla əmələ gətirdiyi kompleks birləşmələrinin tədqiqi, malein anhidridi və stirol əsasında yeni sintetik sorbentlərin sintezi, müxtəlifliqandlı komplekslərin tədqiqi və analitik tətbiqi, müxtəlifliqandlı kompleks birləşmələrinin tədqiqində üçüncü komponentlərin seçilmə prinsiplərinin müəyyən edilməsi və onların elektron kristal quruluşu ilə analitik xassələri arasında əlaqələrin müəyyən edilməsi istiqamətlərində elmi-tədqiqat işləri aparılır. Qeyd etmək lazımdır ki, BDU-da "Rentgen quruluş analiz" laboratoriyası yaradıldıqdan sonra kafedrada üzvi reagentlər və onların metal ionları ilə əmələ gətirdiyi kompleks birləşmələrin quruluş və xassələrinin öyrənilməsinə dair genişmiqyaslı elmi-tədqiqat işləri aparılır. Bu illər ərzində göstərilən elmi istiqamətlər üzrə kafedrada 2 doktorluq və 20 namizədlik dissertasiyası müdafiə olunmuşdur. Hazırda 7 doktorant və dissertant kafedranın elmi istiqamətinə uyğun tədqiqat işləri aparır. Bu müddətdə kafedra əməkdaşları tərəfindən 500-dən artıq elmi əsəri nəşr edilmişdir. Qeyd etmək lazımdır ki, 1999-cu ildən başlayaraq hər üç ildən bir olmaqla Analitik kimya kafedrasında "Koordinasion birləşmələr" Respublika elmi konfransı təşkil olunur.

Son dövrlərdə kafedrada İran, Misir və Gürcüstan respublikaları üçün Analitik kimya ixtisası üzrə kimyaçı mütəxəssislər yetişdirilmişdir. Analitik kimya kafedrası respublikanın digər ali təhsil müəssisələri üçün yüksək ixtisaslı elmi kadrların hazırlanmasında da mühüm əhəmiyyətə malikdir. Kafedranın əməkdaşları Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Lənkəran Dövlət Universitetinin və habelə BDU-nun Qazax filialı üçün hazırlanan dissertant və doktorantlara rəhbərlik etmişdir. Uzun illərdir ki, Bakı Dövlət Universitetinin Analitik kimya kafedrası ilə Gürcüstan Texniki Universiteti arasında elmi əməkdaşlıq aparılır. Akademik Q.V.Tsinsadze və mənim rəhbərliyim altında kompleks birləşmələrin sintezi, onların quruluş və xassələrin öyrənilməsi, analitik tətbiqi sahəsində elmi-tədqiqat işləri aparılır. Hər iki universitetin əməkdaşları Gürcüstan və Azərbaycanda birgə dissertasiya işlərinə rəhbərlik edirlər. Hazırda "Analitik kimya" fənni Kimya, Biologiya və Ekologiya və torpaqşünaslıq fakültələrində tədris olunur. Kafedranın nəzdində Analitik kimya və Kimyəvi ekspertiza ixtisasları üzrə magistrantlar hazırlanılır.

Son illərdə kafedranın əməkdaşları tərəfindən akademik Y.A.Zolotovun elmi redaktorluğu ilə Moskva Dövlət Universiteti nəşriyyatı tərəfindən nəşr olunmuş ikihissəli "Analitik kimyanın əsasları" adlı dərs vəsaiti, eləcə də "Analitik kimyada məsələ və çalışmalar" kitabı tərcümə olunaraq Azərbaycan dilində nəşr edilmişdir. Bundan başqa, Biologiya fakültəsinin tələbələri üçün Analitik kimya, eləcə də Kimya fakültəsinin magistrantları üçün "Atom-absorbsiya spektroskopiya", "Elektrokimyəvi analiz metodları", "Qatılaşdırma və ayrılma analiz metodları", "Nümunə çəkinin götürülməsi və analizi", "Analitik kimya-1" və "Analitik kimyadan praktikum" adlı dərsliklər nəşr edilmişdir.

Kafedrada gənc elmi kadrların yetişdirilməsinə xüsusi diqqət yetirildiyindən mütəmadi olaraq dərslərində xüsusi fəallıq göstərən və elmə böyük həvəsi olan tələbələr kafedranın elmi-tədqiqat işlərinə cəlb edilir. Bu tələbələrə elmi-tədqiqat işlərinin aparılması üçün məsələnin qoyuluşu, təcrübələrin aparılması, referativ və elmi jurnallardan istifadə qaydaları, habelə tezis və elmi məqalələrin yazılması öyrədilir. Qeyd etmək istərdim ki, hazırda kafedrada çalışan professor X.C.Nağıyev, dosent S.Z.Həmidov və Ekoloji kimya kafedrasının dosenti F.E.Hüseynov məhz tələbəlik illərindən kafedranın elmi-tədqiqat işlərinə cəlb edilmişdir. Mən də hələ III kursda oxuduğum dövrdən AMEA-nın müxbir üzvi Xudu Surxay oğlu Məmmədov və professor Dəmir Heydər oğlu Qəmbərovun rəhbərliyi altında elmi-tədqiqat işləri ilə məşğul olmağa başlamışam. Universiteti bitirdikdən sonra məhz həmin illərdə apardığım elmi-tədqiqat işlərinin nəticələrindən istifadə edərək tez bir vaxtda namizədlik dissertasiyası müdafiə etmişəm. Hazırda Analitik kimya ixtisası üzrə magistratura pilləsini başa vurmuş qabiliyyətli gənclər - N.T.Əfəndiyeva və E.C.Eyyubova kafedrada işə götürülmüş və eyni zamanda doktoranturaya qəbul edilmişdir. Kafedranın elmi və pedaqoji potensialı həmişə yüksək olması üçün hazırda kafedranın əməkdaşları qarşısında qoyulan əsas məqsədlərdən biri qabiliyyətli gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi və onları kafedranın gələcəyi üçün yetişdirilməsindən ibarətdir. Kafedrada ayda iki dəfə olmaqla elmi seminarlar təşkil olunur. Bu seminarlarda kafedranın əməkdaşları və doktorantlar apardıqları elmi-tədqiqat işlərinin nəticələri haqqında məruzələr edir və ətraflı elmi müzakirələr aparılır.

Bütün bu nailiyyətlər ötən il 100 illiyi dövlət tərəfindən böyük qədirbilənliklə qeyd edilən Azərbaycan Demokratik Respublikasının Parlamenti tərəfindən təsis edilmiş Bakı Dövlət Universitetinin, eləcə də bu qədim, tarixi təhsil ocağının nəzdində fəaliyyət göstərən Analitik kimya kafedrasının ləyaqətli fəaliyyətinin parlaq nümunələridi. Bu tarix özündə çox böyük bir ənənəni yaşadır. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə bu ənənənin yaşadılmasına xüsusi diqqət və qayğı ilə göstərilirdi. Böyük iftixar hissi ilə qeyd etməliyəm ki, ulu öndərin bu böyük diqqət və qayğısı onun layiqli davamçısı, Prezident cənab İlham Əliyev xüsusi həssaslıqla davam etdirir. Biz bu qayğını hər an hiss edir və işlərimizin uğurlu nəticəsi üçün həmişə dövlət başçısının yaratdığı şəraitə güvənirik. Bu, həmişə belə olub, gələcək illərdə də bu cür davam edəcəyinə əminik.

**F.ÇIRAQOV,**
**BDU-nun Analitik kimya kafedrasının müdiri, kimya elmləri doktoru, professor.**

# Şəfalı əllərin möcüzəsi

Həyatımın 79 ilini yaşamışam. Ancaq bu günə kimi belə ağır xəstə olmamışdım. Oğlum təcili yardım çağıranda nəfəsim tükənib, çabalayırdım. Təcili yardım gəlib məni oksigenlə təmin etdikdən sonra bir balaca özümə gəldim.

Gördüm ki, həkim oğluma nəsə deyir. Oğlumun gözləri yaşarmışdı. Təcili yardım həkimindən xahiş etdim ki, məni Respublika Klinik Xəstəxanasına çatdır. Çünki öten il kardioloji şöbədə müalicə almışdım. Mən bu günə qədər 2 dəfə infarkt keçirmişdim. Şöbənin müdiri Rəhimə Əlizadə və kardioloq-həkim Nailə Həsənova 3 gün ərzində mənə tibbi yardım göstərmişdilər. Tibb bacısı Yeganə Verdiyeva damarıma iynə vurmuşdu. Daha sonralar başqa xəstəliklərimlə əlaqədar həkimlər çağırıb məni müalicə etdilər. Bu şöbədə olan yüksək səviyyəli nizam-intizam, işçilərin xəstələrə səmimi davranışı, buradakı səliqə-sahman məni valeh etmişdi.

Hətta burada xəstələrə verilən yeməyin özü belə dadlı, ləzzətli idi. Bütün xəstələr yeməyin keyfiyyətindən çox razı idilər. Düzü, mən bu xəstəxananın baş həkimi Telman İbadovu tanımırdım. Ancaq ölkəmizin bölgələrindən gəlmiş ayrı-ayrı əmək adamlarının burada göstərilən tibbi xidmətdən bu cür razı qalmaları məndə artıq baş həkim haqqında çox müsbət fikirlər söyləməyə əsas verdi.

Ulu öndərimiz Heydər Əliyevin daim kadr siyasətinə önəm verirdi. Ulu öndər demişdir: "Düzgün kadr seçimi hər bir müəssisənin hər bir təşkilatın uğurlu gələcəyi deməkdir". Bu gün kendlərdə, rayon və şəhərlərdə möhtərəm Prezidentimiz İlham Əliyevin yeni quruculuq işləri göstərir ki, Azərbaycan vətəndaşlarına böyük diqqət və qayğı var. İndi hər yerdə yeni-yeni tibb ocaqları inşa edilmişdir. Mənim keçirdiyim ağır xəstəlikdən sonra sağalmağımı hamı möcüzə sayır. Odur ki, mən xəstəxananın baş həkimi Telman İbadova və bütün işçilərə uğurlu əmək fəaliyyəti, cansağlığı arzulayıram.

Qoy şəfalı əllərin möcüzəsi daim Yer üzünün əşrəfi olan insanlara sağlamlıq bəxş etsin.

**Əlfayım İSMAYILOV,**
**yazıçı.**

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin həyata keçirilə biləcək tibbi sığorta mexanizmləri



*Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20.12.2018 - ci il Fərmanı, tam əminliklə deyə bilərik ki, səhiyyə sahəsində böyük bir dönüş yaradacaq. Bu fərmana görə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsi (bundan sonra - TƏBİB) yaradılır. Bu baxımdan həqiqətən də ən vacib sığorta insan həyatının sığortalanmasıdır. Məhz buna görə dövlət tərəfindən icbari tibbi sığortanın tətbiqi üçün praktiki struktur formalaşdırılıb. Lakin həm cəmiyyət, həm xəstəxanalar, həm də sığorta şirkətlərinin bu prosesə necə hazır olması məsələsi maraq doğurur. Bu və digər məsələlərlə bağlı, moderator.az tibbi sığortanın növləri və tətbiqi ilə bağlı araşdırmalar aparan tanınmış tədqiqatçımız **Adıgözəl Məmmədovun** yazısını təqdim edir.*

Azərbaycan Respublikasında icbari tibbi sığorta haqqında Milli Məclis tərəfindən 1999-cu ildə qanun qəbul edildikdən sonra müstəqil şəkildə tibbi sığorta proseslərini həyata keçirən qurumlar formalaşmağa başladı. 16 fevral 2016-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yarandı. Sevindirici hal budur ki, 20.12.2018-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanı ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzdində Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi publik hüquqi şəxsi (TƏBİB) yaradıldı. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin həyata keçirəcəyi sığortanın mexanizmi belə düşünülür: muzdla çalışanlar, işçilər əmək haqqının 2%-ni, işəgötürənlər də verdikləri maaşın 2%-ni sığorta Agentliyinə köçürəcəklər. Əhalinin müəyyən kateqoriyasının - 18 yaşınadək uşaqların, pensiya yaşında olan vətəndaşların, əlillərin, aztəminatlı ailələrin, tələbələrin və hamilə qadınların sığorta haqlarını dövlət öz üzərinə götürəcək, onlara aid illik 120 manatı dövlət ödəyəcək. Tibbi sığorta bazarının güclənməsi üçün bu fərmana xüsusi ehtiyac var idi. İkinci isə tibb müəssisələri arası rəqabət çox olduğundan, bəzən maraqlar toqquşurdu, çünki icbari özəl tibbi sığorta şirkətləri ilə müqavilə bağlayan idarə və müəssisələr sığorta şirkətləri tərəfindən onlara təqdim olunmuş tibb müəssisələri çərçivəsində seçim edə bilir. Amma elə tibb müəssisələri var ki, sığorta şirkətlərinin siyahısında təmsil olunmuş tibb müəssisələrindən qat-qat üstün tibbi personala və maddi-texniki bazaya malik olmalarına baxmayaraq, özəl tibbi sığorta şirkətlərinin sığortaçıya xidmət edəcək müəssisələr siyahısına alınmır. Ona görə də vəziyyətdən çıxış yolu kimi İcbari Tibbi Sığorta üzrə Agentliyin nəzdində tibbi ərazi bölmələrinin idarəetmə birliyinə daxil olacaq publik hüquqi şəxs statusu qazanan tibb müəssisələri özləri müstəqil olaraq müəssisənin marketinqini həyata keçirmək imkanına malik olmalıdır. Mövcud qanunlar çərçivəsində tibb müəssisələri xidmət paketlərini müəssisə və təşkilatlara təqdim edir. Müəssisə və təşkilatlar da öz əməkdaşlarına tibbi xidmətin göstərilməsi müqaviləsini ya birbaşa, ya da tibbi sığorta təşkilatları vasitəsilə həyata keçirmək imkanını əldə edir. Müəssisə və təşkilatlar tibb müəssisələri ilə birbaşa müqavilə bağladıqda onların işçilərinə göstərilən tibbi xidmətin müqabilində tibb müəssisələri qarşısında müəyyən öhdəliklər qoya bilər. Bu öhdəliklərdən biri də odur ki, tibbi xidmətlərə görə ödəniləcək məbləğin müəyyən bir hissəsi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə ödənsin. Beləliklə də tibb müəssisələri göstərdiyi tibbi xidmətlərə görə əldə etdiyi gəlirin müəyyən bir hissəsini sığorta şirkətinə ödəyir. Bu rəqəm göstərilən xidmətin müqabilində əldə olunmuş gəlirin miqdarından asılı olaraq dəyişə bilər. Amma faiz hesabı ilə bu rəqəm hesablanmalı tərəflərin hər ikisini təmin etməlidir. Yaxud da 3 tərəfli müqavilə şəklində (tibb müəssisəsi, tibbi xidmət haqqını ödəyən təşkilat və sığorta şirkəti) razılaşma formasında həyata keçirilə bilər. Bu istənilən halda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi haqqında yarana biləcək yersiz söz-söhbətlərin qarşısını alacaqdır. Çünki bu praktika tətbiq olunmadığı halda daha çox tibbi xidmət paketlərini əldə edə biləcək tibb müəssisələri və bu paketi onlara təqdim edə biləcək İTSDA (İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi) haqqında şübhələr yarada bilər. Daha az xidmət paketləri alanlar bu halı İTSDA-nın inhisarçı siyasəti kimi qəbul edəcəklər. Amma müstəqil olaraq tibb müəssisələri öz marketinqlərini həyata keçirə bilsələr, onlar daha çox tibbi xidmət paketi əldə etmək naminə öz maddi-texniki bazalarını genişləndirmək və daha yüksək səviyyəli mütəxəssisləri cəlb etmək baxımından və həmçinin tibbi xidmətin səviyyəsini artırmaq üçün tələb olunan addımlar atmağa məcbur olacaqlar. Tibb müəssisələrinə bu baxımdan "intervent investisiya" cəlb etmək hüququnu da vermək lazımdır. Bu məqsədlə tibb müəssisəsinin əmlakı səhmlərə də çevrilə bilər və bu səhmlərin satışı nəticəsində "intervent investisiya" əldə etmək olar. Bu cür sistemin tətbiqi tibbi personalın əməkhaqlarının yüksəlməsinə də səbəb olacaqdır. Bu komponentləri və hüquqları özündə birləşdirən tibb müəssisələri sağlam rəqabət apararaq daha da inkişaf etmək üçün çalışacaqdır. İkinci bir tərəfdən depozit tibbi sığortanı əldə etmək baxımından da rəqabətə cəlb olunacaqdır. Depozit tibbi sığortanın üstün cəhətlərindən biri odur ki, tibbi xərclər müraciət edənin öz hesabına ödənilir. Müstəqil maliyyə fəaliyyəti göstərən tibb müəssisəsi depozit tibbi sığortanın formalaşmasında iştirak edə biləcək. İstənilən halda tibbi müəssisəsinin yüksək tibbi xidmət göstəriciləri fərdi qaydada müraciətləri artıracaq. Belə halda tibb müəssisəsi ilə fiziki şəxs arasında depozit tibbi xidmət haqqında müqavilə bağlana bilər və bu müqavilə nəticəsində formalaşmış gəlirin müəyyən bir hissəsi İTSDA-nın hesabına keçirilərək müəyyən faiz nisbətində hesablanmalıdır. Tibb müəssisələrinin inkişafını təmin etmək üçün öz səhmlərini istiqraz vərəqələrinə çevirərək əlavə maliyyə mənbələrini formalaşdıra bilər. Yəni bu istiqrazları əldə edən hüquqi və ya fiziki şəxslər müəyyən dövr ərzində və ya həmişəlik güzəştli tibbi xidmət əldə edə biləcəklər. Yəni İTSDA yüksək tibbi xidmətin təmin olunması baxımından səhmlərini istiqraza çevirmiş tibb müəssisələri başqa bir formada və ya güzəştli ödəmələr strategiyasını həyata keçirə bilər. Ancaq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə xüsusi səlahiyyət verib özəl tibbi sığortalayanla sığortaçı arasında yaranan aşağıdakı məsələlərə də xüsusi diqqət yetirilməlidir.

Bir çox hallarda bu gün tez-tez rast gəlinən praktikada özəl tibbi sığorta şirkətləri ilə bağlanan müqavilələrdə konkret olaraq hansı patologiyaların və ya xəstəliklərin tibbi sığortaya daxil edildiyi göstərilmir. Ümumi terminlərdən istifadə olunur.

Üz-çənə cərrahiyyəsinin tibbi sığortaya daxil olması barədə bağlanmış müqavilənin stasionar yardım bölməsində göstərilsə də, sığorta risqləri bölməsinin istisnalar hissəsində isə rekonstruktiv cərrahiyyə adı ilə belə əməliyyatların aparılmasından imtina edilir. Halbuki, rekonstruktiv cərrahiyyə dedikdə, çənə sınıqlarının bərpası - çənənin iltihabından formalaşmış osteomielitlərdən əmələ gəlmiş çənə rezorbsiyaları, osteoblastoklastoma və s. başa düşülməlidir. Halbuki, bu da üz-çənə cərrahiyyəsinin tərkib hissəsidir. Eyni hal digər patologiyalar üzrə də təkrarlanır. Neyrocərrahiyyə və travmatologiya müqavilənin stasionar yardım bölməsinə daxil edilsə də, hansı növ patologiyaların ora aid olduğu göstərilmir. Əslində, bu da son nəticədə haqlı narazılıqlar yaradır. Məsələn: Tibbi sığortaya daxil edilən işçi hər hansı neyrocərrahi və ya travmatoloji xəstəliklərin tibbi sığortaya daxil olduğunu bilərək həkimə müraciət edir, müvafiq qaydada diaqnoz qoyulduqdan sonra həkim tibbi sığorta agentinə müraciət edir. Tibbi sığorta şirkətinin nümayəndəsi isə xəstəyə qoyulmuş diaqnozun tibbi sığortaya aid olmadığını qeyd edərək xəstənin xəstəxanada yerləşdirilməsinə icazə verilmir. Bütün bunlar ondan qaynaqlanır ki, müqavilə bağlanılarkən konkret hansı patologiyaların müqaviləyə daxil olması qeyd olunmalıdır. Yəni yuxarıda qeyd etdiyim özəl tibbi sığorta şirkətləri ümumi cümlələr altında istənilən halda hər hansı bir işçinin müalicəsindən imtina etmək imkanlarını əldə edir. Bu hal, əlbəttə, tibbi sığorta şirkətinin işinə yarayır. Sığorta olunanlara az pul xərcləyərək çox pul qazanır, lakin nəticədə sağlamlığının qorunmasının keyfiyyəti aşağı düşür. ■

# GÖYGÖL: SOSİAL-İQTİSADİ UĞURLAR





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda geniş və əhatəli çıxış edən dövlət başçısı, sosial-iqtisadi inkişafın yekunlarını təhlil etmiş, qarşıda duran vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzovun, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidovun, Göygöl Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının nümayəndələrinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət rəhbərlərinin, bələdiyyə sədrləri, sahibkarlar və geniş ictimaiyyət nümayəndələrinin iştirakı ilə ölkə başçısının nitqindən irəli gələn məsələlərlə bağlı geniş yığıncaq keçirilmişdir.**

Yığıncağı giriş sözü ilə açan **Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov** qeyd etdi ki, 2018-cı ildə dünya iqtisadiyyatında böhranlı vəziyyətin davam etməsinə, bütün ölkələrin böhrandan əziyyət çəkməsinə baxmayaraq, ölkə başçısı cənab İlham Əliyevin düşünülmüş siyasətinin, gələcəklə bağlı mükəmməl proqramların icrasının və xalq-iqtidar birliyinin nəticəsi olaraq Azərbaycan öz inamlı inkişafını davam etdirmiş, ölkə iqtisadiyyatı yüksələn xətlə irəliləyərək bu dövr dərin iqtisadi islahatlar ili kimi yadda qalmışdır.

2018-ci ildə Göygöl rayonunda istehsal və xidmət sahələrinin genişləndirilməsi, sosial obyektlərin tikilməsi, abadlıq-quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrasının nəticəsi olaraq 15 il ərzində rayonun iqtisadiyyatı dinamik inkişaf etmiş, 85 xidmət, 203 istehsal, 5 emal obyektləri istifadəyə verilmişdir.

Dövlət başçısının regionların inkişafına göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində məşğulluq səviyyəsi artmış, sahibkarlıq fəaliyyəti genişlənmiş, həmçinin rayon üçün ənənəvi olan kənd təsərrüfatı sahələri daha da inkişaf etmişdir. Sahibkar Nəsibov Famil Nəsir oğlu tərəfindən Nadil kəndində 2,5 hektarda istehsal gücü 500 ton tərəvəz olan müasir istixana, sahibkar Cahangirov Şəmil Həsən oğlu tərəfindən Hacıməlik qəsəbəsində əkilmiş 40 hektara yaxın meyvə və üzüm bağlarının məhsullarının çeşidlənməsi, qurudulması və qablaşdırılması məqsədi ilə komplekslərinin tikintisinə başlanılmışdır. Qeyd olunan obyektlərdə ümumilikdə 120 nəfərinin işlə təmin olunması nəzərdə tutulmuşdur.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aqrar sahəyə göstərilən dövlət qayğısı nəticəsində kənd təsərrüfatı məhsulları istehsalının həcmində nəzərəçarpacaq artım müşahidə edilməkdədir. 2018-ci ildə rayon ərazisində 19724,3 ton taxıl istehsal edilmişdir ki, bundan 14616,7 ton buğda, 5107,6 ton arpa məhsulu olmuşdur. Nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi nəticəsində ötən il 501 hektar şəkər çuğunduru sahəsindən 18479 ton məhsul yığılmışdır. Fermer Hüseynov Taleh Nurəddin oğlu kənd təsərrüfatı məhsullarının istehsalında rayon üzrə daha yüksək nailiyyətlər əldə etdiyi üçün Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2018-ci il tarixli 840 nömrəli sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətinə görə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə 130 ədəd subartezian quyusunda cari, 5 subartezian quyusunda isə əsaslı təmir işləri aparılmışdır. Qapalı boru su şəbəkəsinin 5,0 kilometri, beton kanalların isə 12 kilometri təmir edilmiş, sel və daşqınların qarşısını almaq məqsədilə çay məcralarinda 286 min kubmetr həcmində təmizləmə işləri görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən rayon ərazisində qazılması nəzərdə tutulmuş 4 ədəd subartezian quyusu artıq istifadəyə verilmişdir.

Göygöl şəhərinin Ordubadi, Mikayıl Müşfiq və İsrafil Məmmədov küçələrinə, 4 saylı orta məktəbin həyətinə və Mərkəzi rayon stadionuna ümumilikdə 15260 kvadratmetr asfalt örtük salınmış, 2631 metr suötürücü arxlar quraşdırılmışdır. 30 000 metr yollar və piyada keçidləri yol boyası ilə, 18200 metr bordürlər emulsiya ilə rənglənmişdir. Şəhərin yeni yaşayış massivində 6 küçənin gecə işıqlanması yenidən qurulmuşdur.

2017-2018-ci tədris ilində rayonun ümumtəhsil məktəblərinin XI sinfini bitirmiş 636 şagirddən 31 şagirdi fərqlənmə attestatı almışdır. Ali və orta ixtisas məktəblərinə qəbul olmaq üçün sənəd təqdim edən 451 məzundan 51 nəfəri orta ixtisas təhsil müəssisələrinə, 215 nəfəri isə ali məktəblərə qəbul olaraq tələbə adını qazanmışlar. Bunlardan 33 nəfəri 500-dən, 17 nəfəri isə 600-dən yuxarı bal toplamışdır.

Əhalinin sağlamlığının qorunub saxlanılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyəsinə əsasən rayon əhalisi ümumi profilaktik müayinələrə cəlb edilərək 38575 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 9442 nəfər ambulator, 416 nəfər stasionar müalicəyə, 94 nəfər cərrahi müalicəyə cəlb olunmuş, 39 nəfər daha yüksəkixtisaslı tibbi yardım almaq üçün Bakı şəhərinə göndərilmişdir.

2018-ci ildə Dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə rayon idmançıları 12 qızıl, 12 gümüş və 8 bürünc medal qazanmışlar. Onlardan ən yüksək nəticə 2018-ci il 8-9 noyabr tarixlərində Qazaxıstan Respublikasının Aktau şəhərində keçirilən Aşihara-karate üzrə dünya çempionatında 4 idmançımızın (2 qızıl və 2 gümüş) medal qazanmaları olmuşdur. Göygöl Rayon İcra Hakimiyyəti başçısının il ərzində yerlərdə 44 səyyar qəbulu keçirilmişdir.

Sonra, rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup işçilərə "Fəxri fərman"lar və qiymətli hədiyyələr təqdim edildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# İlmələrdə yaşayan tariximiz

**Böyük İpək Yolunun kəsişməsində yerləşən Qədim Quba tarixən ticarət və sənətkarlıq mərkəzi olub. Xalçaçılıq sənəti burada yaşayan insanların qədim sənətidir. Etnoqrafik cəhətdən olduqca zəngin olan bu diyar xalçaçılıq ənənələrini bu günə kimi qoruyub saxlamışdır. Nəsildən-nəslə qiymətli bir əmanət kimi ötürülən zərif, orijinal kompozisiyalara malik xovlu və xovsuz müxtəlif çeşidli xalçalar ayrı-ayrı kəndlərin, yaşayış məntəqələrinin tarixini, məişətini özündə əks etdirir. Zərifliyi, rəng əlvanlığı ilə adamı özünə valeh edən "Ağgül Çiçi", "Qollu Çiçi", "Afurca", "Quba", "Qonaqkənd", "Pirəbədil", "Qədim minarə", "Qımıl", "Zeyvə", "Yerfi" kimi xalçalar dünyanın məşhur saraylarının, muzeylərin, şəxsi kolleksiyaların bəzəyidir.**





Quba xalçaçılıq məktəbinin ənənələri bu gün də qorunur, yaşayır, inkişaf edir. Məlumat üçün deyək ki, bu məktəbin əsas məntəqələri Quba və Şabran rayonlarının Dərə Çiçi, Sırt Çiçi, Pirəbədil, Qonaqkənd, Afurca, Alpan, Şahnəzərli, Qaraqaşlı kəndləridir. Xatırladaq ki, Dəmirqapı Dərbəndin ərazisində toxunan xalçalar da Quba xalçaçılıq məktəbinə aiddir. Bu gün Qubada xalça həm kəndlərdə fərdi evlərdə, kiçik sexlərdə, həm də rayon mərkəzində fəaliyyət göstərən xalça fabriki, "Qədim Quba" və "Aygün" xalçaçılıq müəssisələrində toxunur.

Son illərdə Qubada xalçaçılığın inkişafı üçün geniş imkanlar açılıb. Quba şəhərində yeni xalça fabriki istifadəyə verilib. Burada xalça istehsalı emalatxanası 2017-ci il dekabr ayının 7-də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib.

Emalatxanada 150 toxucu və 14 inzibati təsərrüfat işçisinin fəaliyyəti üçün rahat iş şərait yaradılıb. Burada 43 dəzgah quraşdırılıb. Toxucular zəruri xammal və ləvazimatlarla təmin edilmişdir. **Fabrikin direktoru Nəzakət Novruzova** görülən işlər barədə məlumat verərək deyir ki, müəssisədə quraşdırılan dəzgahların hamısında iş gedir. Xalçaları təbii boyalı, yun xammaldan toxuyuruq. Hazırda fabrikimizdə 80 nəfər toxucu çalışır. Toxucularımız əsasən Quba şəhərinin, eləcə də Aşağı Atuc, Ağbil, Dağlı, İkinci Nügədi, Əlibəyqışlaq və digər kəndlərin sakinləridir. Fabrikdə fəaliyyət göstərən toxuculuq dərnəyində gənc toxucular yetişdirməklə işçilərin sayını ildən-ilə artırırıq. Fəaliyyətə başladığımız qısa müddət ərzində 141 ədəd, yəni - 412 kvadratmetr xalça təhvil vermişik. Təkcə ötən il 131 ədəd xalça toxumuşuq. Bu ilin ötən dövrü ərzində anbarda 50 kvadratmetr xalçamız hazırdır. Əsasən "Pirəbədil", "Qaraçay", "Təbriz", "Şirvan", "Quba", "Bakı", "Alçagül Çiçi" çeşnili xalçalar toxuyuruq.

Toxucularla söhbət edirik. Xalça ustası **Tahirə Babayeva** deyir ki, 40 ildir bu qədim sənətlə məşğulam. Ailəliklə xalçaçıyıq. Bacım Ayişə, qızım Vüsalə də mənimlə bir yerdə çalışır. Gəlinim də burada işləmək istəyir. Fabrikin açılması ailəmiz üçün çox böyük hadisədir. Bura iş yerimiz, ailəmizin dolanacaq mənbəyidir. Bu işi araya-ərsəyə gətirən dövlətimizin başçısına kollektivimiz adından bir daha öz dərin minnətdarlığımızı bildiririk. Bizim üçün gözəl iş şəraiti yaradılıb. Həvəslə işləyirik. Burada mənim şagirdlərim də var. İndiyə kimi 20 nəfərə yaxın toxucu yetişdirmişəm.

Filialın direktoru Nəzakət Novruzova xalçaçı rəssamdır. Xalça sənətkarları ailəsində böyüyüb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dekorativ tətbiqi sənət fakültəsini bitirib. Deyir ki, biz həm də unudulmaqda olan, az qala sıradan çıxan xalçaların bərpası ilə də məşğuluq. Qədim xalçaların kompozisiyası əsasında yenilərini də yaradırıq. Əsasən buta, islimi, yarpaq formalı, xətai, kətəbə ornamentli xalçaların toxunulmasına üstünlük veririk. Rəssamı olduğum "Qış fəsli", "Dədə Qorqud", "İçəri şəhər" kimi süjetli xalçalarımız da var.

Yeri gəlmişkən deyək ki, Nəzakət Novruzova bu yaxınlarda Quba filialının fəaliyyətində yüksək peşəkarlığı ilə fərqləndiyinə görə "Azərxalça" ASC-nin Fəxri fərmanına layiq görülmüşdür. Ümid edirik ki, "Azərxalça"nın bu fabriki yaxın illərdə Quba xalçaçılıq məktəbinin mərkəzinə çevriləcəkdir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**



# Gəncənin baş meydanı bayram libasını geyinib

Gəncənin Heydər Əliyev meydanında "Novruz şəhərciyi" salınıb, hündürlüyü 4,5 metr olan nəhəng səməni quraşdırılıb. Gün ərzində şəhərciyə gələn qonaqları Novruz bayramının əsas atributları olan Kosa, Keçəl və Bahar qızı qarşılayır.



Təşkilati işlər üzrə məsul şəxs Sevinc Hüseynova bildirib ki, bu il digər illərdən fərqli olaraq sakinlər bir çox yeniliklərlə qarşılaşacaqlar: *"Şəhərin baş meydanında 10 ədəd evcik qurulub. Burada müxtəlif yeyinti məhsullarının tanıtımı və satışı həyata keçirilir. Ərazidə uşaqların asudə vaxtının maraqlı təşkili üçün müxtəlif attraksionlar quraşdırılıb. İlk dəfə olaraq burada paytaxtdan gələn "Manqalçı Evi" təmsil olunur, sakinlərə közdə şabalıd təklif edilir. Martın 5-dən 28-nə qədər hər gün canlı konsertlər təşkil olunacaq. Şəhərcikdə gündəlik şou-proqramlar, uduşlu viktorinalar keçirilir. Təşkilatçılar tərəfindən qaliblərə müxtəlif hədiyyələrlə təqdim olunur. Həmçinin, bu il şəhərcikdə milli atributlarla bəzədilən "Novruz Evi" quraşdırılıb. Bu evdə qonaqlarımız milli paltarlarımızı geyinərək nağıl qəhrəmanları ilə birlikdə şəkil çəkdirə, "Face Art" xidmətindən istifadə edə bilərlər".*

Novruz şəhərciyində Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə musiqili proqramlar təqdim olunur. Konsert proqramları hər gün saat 18:00-dan başlayır. Konsertdə əsasən Gəncə Dövlət Filarmoniyasının kollektivi, şəhərdə fəaliyyət göstərən musiqi məktəblərinin ansambılları, Gəncə Musiqi Kollecinin istedadlı tələbələri iştirak edirlər. Bunlarla yanaşı Gəncə Dövlət Dram və Kukla Teatrları kollektivlərinin də çıxışları olur.



Qeyd edək ki, "Novruz şəhərciyi" Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, Gəncə Regional Mədəniyyət idarəsinin və "Gənclənd" Ailəvi-istirahət kompleksinin təşkilatçılığı ilə salınıb.

Məlumat üçün bildirək ki, mart ayının 19-da, yeni ilaxır çərşənbədə əsas meydanda möhtəşəm tonqal qalanacaq, martın 21-də isə Bakıdan dəvət olunan müğənnilərin iştirakı ilə konsert proqramı təşkil ediləcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Zaqatala Rayon Məhkəməsinin hakimi və məsləhətçisi barəsində həbs qətimkan tədbiri seçilib

**Ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən tədbirlər çərçivəsində hakimlərin məsuliyyət hissinin artırılmasına, vətəndaşların haqlı narazılığını doğuran korrupsiya və digər neqativ halların aradan qaldırılmasına xüsusi əhəmiyyət verilir. Təkcə son zamanlar Məhkəmə-Hüquq Şurası tərəfindən korrupsiya ilə bağlı 9 hakimin səlahiyyətlərinə xitam verilib və yaxud tutduğu vəzifədən azad edilib.**

Məhkəmə-Hüquq Şurasının və Baş Prokurorluğun AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, qanunvericiliyin tələblərini kobud pozmasına və korrupsiyaya şərait yaradan hallara görə səlahiyyətlərinə xitam verilmiş Zaqatala Rayon Məhkəməsinin hakimi Arif İsmayılov barədə materiallar Məhkəmə-Hüquq Şurasının qərarına əsasən cinayət xarakterli korrupsiya halına hüquqi qiymət verilməsi üçün Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Materiallar üzrə cinayət işi başlanıb. İstintaqın gedişində Zaqatala Rayon Məhkəməsinin hakimi Arif İsmayılovun və məsləhətçisi Şahid Allahverdiyevin məhkəmənin icraatında olan mülki iş üzrə tərəflə qeyri-prosessual münasibətlər yaradaraq rüşvət tələb etmələri müəyyənləşib.

Bununla əlaqədar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən A.İsmayılova Cinayət Məcəlləsinin 311.1-ci (rüşvətalma), Ş.Allahverdiyevə isə 32.4, 312.1-ci (rüşvət verməyə təhriketmə) maddələri ilə ittiham elan olunmaqla, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

Azərbaycan Milli Elmlər Akademiyası Respublika Seysmoloji Xidmət Mərkəzi açıq tender elan edir

Tender 2 (iki) LOT üzrə aparılır

Lot-1. Cari təmir

Lot-2. Avadanlığın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

İştirak haqqı:

Hər Lot üzrə — 100 (yüz) manat

DXA

Kod: 210005

VÖEN: 1401555071

M/h: AZ85NABZ01365010000000003003944

S.W.İ.F.T. CTREAZ22

Adı: AMEA RSXM

H/h: AZ34CTRE00000000000004138305

VÖEN: 1700434611

Büdcə səviyyəsinin kodu: 1

Büdcə təsnifat kodu: 4138305

Maddə 142319

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı gündən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanətini iş qrafiki istisna olmaqla) 29 aprel 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 7 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 8 may 2019-cu il saat 11:00-da açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. Ünvan: Bakı şəhəri, Səbail rayonu, R.Rəfibəyli küç. 9. Telefon: 012-492-50-70. Faks: 012-492-50-70

Tender Komissiyası.

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN QEYDİYYAT VƏ NOTARİAT BAŞ İDARƏSİ

## AÇIQ TENDER ELAN EDİR

2019-cu il üçün dövlət notariat ofislərində və qeydiyyat şöbələrində (orqanlarında) istifadəsi nəzərdə tutulan müxtəlif növ blank formaları, qeydiyyat şəhadətnamələri, akt qeydləri, qeydiyyat kitabçaları, həmçinin əmrlər, qərarlar, qanunlar, təlimatlar, arxiv sənədlərinin hesabat toplusu, iş planı, bülletenlərin,arxiv sənədləri üçün xüsusi qutuların hazırlanması, və arxiv sənədlərinin cilidlənməsi işlərin satınalması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2019-cu il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 100 (bir yüz) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanından (əlaqələndirici şəxs: Zaur Tofiq oğlu Qasımov telefon: 404-42-03, faks 441-02-36) ala bilərlər.

**Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.**

*Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi*

*Hesab AZ61CTRE00000000000002088403*

*VÖEN:1300498771*

*Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi*

*Kodu: 210005*

*VÖEN: 1401555071*

*Müxbir hesab AZ41NABZ01360100000000003944*

*S.W.İ.F.T.BİK: CTREAZ 22*

*Büdcə təsnifatının kodu: 142340*

*Büdcə səviyyəsinin kodu: 7*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*

*- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*

*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçı hüquqi şəxsin tam adı, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- iddiaçı fiziki şəxs olduqda - adı, VÖEN-i;*

*- müvafiq mallar üzrə uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 12 aprel 2019-cu il saat 17:00-a dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 23 aprel 2019-cu il saat 12:00-a dək Bakı şəhəri, Azadlıq prospekti 72, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Bakı şəhəri, Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsində 24 aprel 2019-cu il tarixdə saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

# UNEC-də təhsilin elmə inteqrasiyası istiqamətində mütərəqqi islahatlar aparılır



**UNEC-in "Professorlar Klubu"nun növbəti görüşü keçirilib.**

Görüşün fəxri qonağı AMEA-nın həqiqi üzvü, YUNESCO-nun Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun müxbir üzvü, akademik Şahin Mustafayev olub.

"Professorlar Klubu"nun rəyasət heyətinin sədri, "Maliyyə və maliyyə institutları" kafedrasının müdiri, əməkdar müəllim, professor Əvəz Ələkbərov klubda mütəmadi olaraq ölkənin tanınmış alim və ictimai xadimləri ilə qeyri-rəsmi şəraitdə görüşlərin keçirildiyini, cəmiyyətin aktual mövzuları barədə fikir mübadiləsi aparıldığını diqqətə çatdırıb.

Ə.Ələkbərov UNEC-də son illərdə həyata keçirilən yeniliklərdən də danışıb. UNEC-in tədqiqatyönümlü ali təhsil müəssisəsinə çevrilmək istiqamətində qarşısına qoyduğu hədəflərdən söz açan professor, universitetdə Nobel mükafatçılarının iştirakı ilə nüfuzlu beynəlxalq konfranslar keçirildiyini, pedaqoji heyətin elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə Differensial Əməkhaqqı Sisteminin tətbiq edildiyini vurğulayıb. Professor son 4 ildə UNEC-in pedaqoji heyətinin nüfuzlu beynəlxalq elmi bazalara daxil olan jurnallarda dərc olunan məqalələrinin sayının ötən illərə nisbətən 4 dəfədən çox artdığını, beynəlxalq əlaqələrinin daha da genişləndirildiyini bildirib.

UNEC-də təhsilin elmə inteqrasiyası istiqamətində mütərəqqi islahatların aparıldığını deyən akademik Şahin Mustafayev universitetin mütəmadi olaraq beynəlxalq reytinqlərdə mövqeyini yüksəltməsini qürurla izlədiyini bildirib. Akademik UNEC-də yüksək elmi mühitin yaradıldığına diqqət çəkərək, bu ali təhsil müəssisəsinin aparıcı islahatların önündə olacağına əminliyini ifadə edib.

"Professorlar Klubu"nun yaradılmasını yüksək qiymətləndirən fəxri qonaq bu istiqamətdə dünya təcrübəsini bölüşüb. Sonra alim şərqşünaslıq və tarix elminin strateji istiqamətləri, tarix elminin cəmiyyətin formalaşmasındakı rolu və apardığı tədqiqatlardan bəhs edib.

Novruz süfrəsi ətrafında təşkil olunan səmimi görüş müzakirələrlə davam edib. ■

# Azercell-dən Novruz hədiyyəsi!

Ölkənin mobil kommunikasiya sektorunun lideri olan "Azercell Telekom" MMC abunəçilərini Novruz Bayramı ərəfəsində sevindirməyə davam edir. Azercell müştərilərinə bayram əhval-ruhiyyəsi bəxş etmək üçün musiqisevərlərə xüsusi kampaniya təqdim edir. Belə ki, Azercell mart ayının 15-dən aprel ayının 15-nə kimi hər 1GB, 5GB, 10GB, 50 GB (Limitsiz internet) həcmində aylıq mobil interneti paketi sifariş edən və ya GəncOl5, GəncOl8, Hədsiz, Hədsiz İnternet tarif paketlərinindən birini aktiv edən abunəçilərinə ZVUK-dan (onlayn musiqi tətbiqi) 30 günlük pulsuz abunəlik hədiyyə təqdim edəcək.




